# “Daxili istehsal məhsullarına və idxal edilən məhsullara gigiyenik sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətinin təlimatı

Bu xidmət vasitəsilə Daxili istehsal məhsullarına və idxal edilən məhsullara gigiyenik sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu mümkündür.

Xidmətdən istifadə etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin *sehiyye.gov.az* saytına, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin *e-sehiyye.gov.az* rəsmi saytına və yaxud Elektron hökümət portalına *e-gov.az* daxil ola bilərsiz. Daha sonra Səhiyyə Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən “Daxili istehsal məhsullarına və idxal edilən məhsullara gigiyenik sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətini seçmək lazımdır. (Şəkil 1)




***Şəkil 1***

Elektron xidmətə daxil olduqdan sonra açılan pəncərənin *“Ərizələrim”* bölməsində sistem istifadəçinin göndərmiş olduğu ərizələrin siyahasını verir. İstifadəçi yeni ərizə göndərmək üçün *“Yeni ərizə”* bölməsinə daxil olmalıdır. (Şəkil 2)




***Şəkil 2***

*"Yeni ərizə"* bölməsinə daxil olduqda açılan pəncərədə istifadəçi fiziki və ya hüquqi şəxs olması barədə məlumat verməlidir. (Şəkil 3)




***Şəkil 3.***

İstifadəçi fiziki şəxs olarsa, Şəxsi məlumatlar hissəsində yaşayış ünvanı, fəaliyyət ünvanı, əlaqə vasitələri, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi qeyd edilir. ( Şəkil 4 )




***Şəkil 4.***

Obyekt haqqında məlumatlar sahəsində istifadə sahəsi seçilməlidir. Məhsul haqqında məlumatlar sahəsində məhsulun tam adı, məhsulun gigiyenik xarakteristikası barədə məlumatları daxil etməlidir. (Şəkil 5)




*Şəkil 5*

***Qeyd: * işarəli xanaları daxil etmək mütləqdir***

Növbəti mərhələdə İstehsalçı müəssisənin sanitariya norma və qaydalarının tələblərinə uyğunluğu haqqında ərazi dövlət sanitariya nəzarəti orqanının sanitariya müayinə aktının elektron formada surəti, qanunvericilikdə nəzərdə tutulduğu halda, xüsusi razılığın elektron formada surəti , Kontraktın (müqavilənin) elektron formada surəti, və İstehsalçı ölkənin səlahiyyətli orqanları tərəfindən verilmiş yeyinti məhsulun mənşəyini və təhlükəsizliyini xarakterizə edən müvafiq sertifikatın notarial qaydada təsdiq edilmiş tərcüməsinin elektron formada surəti sənədləri *"Yüklə"* düyməsindən istifadə etməklə yüklənməlidir. (Şəkil 6)



Ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir

| Say | Sənədin adı | Əl ilə daxil edəcəm | Yüklə |
|---|---|---|---|
| 1 | İstehsalçı müəssisənin sanitariya norma və qaydalarının tələblərinə uyğunluğu haqqında ərazi dövlət sanitariya nəzarəti orqanının sanitariya müayinə aktının elektron formada surəti | | Yüklə |
| 2 | Qanunvericilikdə nəzərdə tutulduğu halda, xüsusi razılığın elektron formada surəti | | Yüklə |
| 3 | Kontraktın (müqavilənin) elektron formada surəti | | Yüklə |
| 4 | İstehsalçı ölkənin səlahiyyətli orqanları tərəfindən verilmiş yeyinti məhsulun mənşəyini və təhlükəsizliyini xarakterizə edən müvafiq sertifikatın notarial qaydada təsdiq edilmiş tərcüməsinin elektron formada surəti | | Yüklə |

Yadda saxla və təsdiq et
Yadda saxla

*Şəkil 6.*

İstifadəçi hüquqi şəxs olduqda müəssisə rəhbərinin adını, soyadını, atasının adını, hüquqi şəxsin adını, təşkilatın hüquqi formasını, hesablaşma hesabının olduğu bankı, hesablaşma hesabının nömrəsini və s. barədə məlumatlar daxil edilməlidir. Növbəti mərhələdə istifadəçi *"Şəxsi məlumatlar"* bölməsində yaşayış ünvanını, fəaliyyət ünvanını, ev,iş telefon, mobil telefon nömrəsini və VEÖN barədə məlumatları daxil etməlidir.

Növbəti mərhələdə İstehsalçı müəssisənin sanitariya norma və qaydalarının tələblərinə uyğunluğu haqqında ərazi dövlət sanitariya nəzarəti orqanının sanitariya müayinə aktının elektron formada surəti, qanunvericilikdə nəzərdə tutulduğu halda, xüsusi razılığın elektron formada surəti , Kontraktın (müqavilənin) elektron formada surəti, və İstehsalçı ölkənin səlahiyyətli orqanları tərəfindən verilmiş yeyinti məhsulun mənşəyini və təhlükəsizliyini xarakterizə edən müvafiq sertifikatın notarial qaydada təsdiq edilmiş tərcüməsinin elektron formada surəti sənədləri *"Yüklə"* düyməsindən istifadə etməklə yüklənməlidir.

Sonda istifadəçi *"Yadda saxla"* düyməsindən istifadə etməklə yaradılmış müraciəti yadda saxlayaraq sonra göndərə və ya *"Yadda saxla və Təsdiq et"* düyməsindən istifadə etməklə yaradılmış müraciəti Səhiyyə Nazirliyinin müvafiq qeydiyyat orqanına göndərmiş olur.

Ərizəni göndərdikdən sonra qeyd etdiyiniz elektron ünvana Səhiyyə Nazirliyi tərəfindən müraciətinizdə təqdim olunan ərizəyə baxılması barədə bildiriş göndəriləcəkdir.

Azərbaycan Respublikası, Bakı şəhəri,

AZ 1022 akad. M.Mirqasımov küç. 1A

Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi

Tel: (+99412) 596 80 44, (+99412) 431 38 2

www.e-sehiyye.gov.az